## HEYDƏR ƏLİYEV – 95

# AXC VƏ QURUCULARININ HAQQINI BƏRPA EDƏN LİDERİMİZ



*"Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur Yer üzünü".*
**Hüseyn Cavid**

O, Azərbaycanın çox ağır və mürəkkəb dönəmində tarixi zərurət və xalqın dəvəti ilə hakimiyyətə gəlmişdi - durğunluğun, ətalətin hökm sürdüyü ötən əsrin altmışıncı illərində də, respublikanın özbaşınalıq, hərc-mərclik, xaos məkanına çevrildiyi, parçalanma təhlükəsi ilə üzləşdiyi müstəqillik dövründə də... Öz əzəməti, vətənpərvərliyi, peşəkarlığı ilə düşmən tör-töküntülərinin, bədxahların, tərəqqimizi istəməyən qüvvələrin bütün maneçiliklərini, sərt baryerləri, süni şəkildə yaradılan əngəlləri keçərək taleyüklü vəzifələri – xilaskar missiyasını yerinə yetirmək üçün gəldi.

Çünki şərəfli keçmişə və qədim ənənələrə malik xalqın gözlədiyini, dövlətçilik tarixi neçə yüz il əvvələ dayanan ölkəyə gərək olduğunu, zəngin məmləkətimizə yadelli müdaxiləçilərin necə hərisliklə diş qıcadığını bilirdi.

Gəldi... və Azərbaycanın həyatında tamamilə yeni bir mərhələnin əsası qoyuldu; siyasi, iqtisadi, hərbi, mədəni, elmi – bütün sahələr üzrə canlanma, inkişaf müşahidə edildi, uğurlar qazanıldı, müsbət nəticələr əldə olundu.

Gəldi... Pərakəndəlikdən, təfriqələrdən, səfalətdən, yalan və illüziyalardan yorulmuş, bezmiş, bədbinləşmiş kütləri doğal haqqlarına qovuşdurdu; xalq ətrafına toplaşdı və yürütdüyü siyasəti dəstəklədi; insanlar kimsəsiz, sahibsiz olmadıqlarını anladılar, sabaha ümidlə, nikbin nəzərlərlə baxmağa başladılar.

Gəldi... İşğal etdikləri ərazilərlə kifayətlənməyib cənnət yurdumuzun içərilərinə soxulmağa çalışan erməni-daşnak quldurlarının və onların xarici himayədarlarının qarşısına bir cəngavər komandan kimi çıxdı, düşməni durdurdu; cəbhə bölgəsində uğurlu əməliyyatların təşkilinə, nahaq qanların axmaması, gəncliyin daha gərəkli sınaqlara qədər qorunması məqsədilə atəşkəsə nail oldu.

Demokratik cəmiyyətin qurulması, insan hüquq və azadlıqlarının təmini, sosial rifahın yüksəlişi yolunda var gücü ilə çalışdı; Azərbaycanı bütün cahana açıq elan etdi, dünyanın qabaqcıl dövlətləri ilə ikitərəfli münasibətlər qurdu...

Əlbəttə, bu siyahını xeyli uzatmaq olar, Ulu öndər Heydər Əlirza oğlu Əliyevin tarix, ölkə, xalq qarşısındakı xidmətləri, mövcudluğumuza töhfələri haqqında yazmaq, söhbət açmaq mümkündür. Amma o dahi insana müstəqil Azərbaycanın memarı səviyyəsində dəyər verilməsi daha məqsədəuyğundur. Çünki bütün fəaliyyəti məhz Azərbaycanın yaşaması, qüdrətlənməsi, nüfuz sahibi olması naminə idi. Və çox sevindirici haldır ki, ümummilli liderin bu istiqamətdə ən böyük töhfəsi bu gün onun qoyduğu xətti, yeritdiyi siyasəti uğurla davam etdirən Prezident cənab İlham Əliyevdir.

**Heydər Əliyev şəxsiyyətinin ucalığı təkcə qurub yaratmaqla ölçülmür, o, eyni zamanda yaşadan, mütərəqqi ideya və əməllərə nəfəs verən, başqalarının da gərəkli fəaliyyətini qiymətləndirən müdrik, genişürəkli siyasətçi və dövlət xadimidir. Cənab İlham Əliyevin müvafiq sərəncamları ilə 100 yaşını qeyd etdiyimiz Azərbaycan Cümhuriyyəti, onun qurucularına ümumxalq sayğısı, bu mövzuda arxiv materiallarının tapılıb üzə çıxarılması, işlənməsi, gənc nəsillərə çatdırılması da mərhum Prezidentin göstəriş və qərarları ilə doxsanıncı illərin ortalarından etibarən gücləndi və sistemləşdi.**

Bu siyasətin bəlkə də pik nöqtəsi 2003-cü il fevralın 1-də imzalanmış Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamıdır.

Həmin taleyüklü sənəddə 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın həyatında əlamətdar hadisə kimi əbədi yer tutduğu, həmin tarixin ən əziz bayramlardan biri - Respublika günü kimi təntənəli şəkildə qeyd olunduğu bildirilir, qarşısına müstəqil, azad, demokratik respublika qurmaq məqsədi qoymuş Cümhuriyyətimizin cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardığı, öz müqəddəratını müəyyənləşdirməyə qadirliyini əyani şəkildə nümayiş etdirdiyi vurğulanır.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süquta uğrasa da da, aşıladığı müstəqillik hisslərinin xalqımızın yaddaşından heç vaxt silinməyəcəyinə inamla,

Azərbaycan xalqının 1991-ci ildə öz dövlət müstəqilliyini bərpasından sonra Cümhuriyyət ideallarını davam etdirərək bu tarixi varislik üzərində yeni müstəqil Azərbaycan dövləti yaratdığı təsdiqlənir.

Bütün bunlar bir daha deməyə əsas verir ki, nə qədər müstəqil Azərbaycan yaşayacaq Heydər Əliyev şəxsiyyəti, fəaliyyəti, arzuları və tövsiyələri də unudulmayacaq.

Bu il Cümhuriyyətimizin 100 yaşı ilə Azərbaycanın ikinci dəfə azadlığa qovuşması və müstəqilliyimizin qorunub saxlanılmasında müstəsna xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin 95-illik yubileyinin eyni vaxta təsadüf etməsini də taleyin, zamanın qanunauyğunluğu saymaq olar. Ulu öndərin anadan olmasının 95 illiyinin Azərbaycanda və xarici ölkələrdə böyük coşğu ilə keçirilməsi qədirbilən xalqımızın Rəhbərə məhəbbətinin təsdiqi, bariz nümunəsidir. ❖



Prezident İlham Əliyev
Cümhuriyyət abidəsini ziyarət edərkən.
28.05.2018